# Doğma yurda qayıdışımız reallaşacaq

**Azərbaycanlıların Qərbi Azərbaycandan köçürülməsi tarixi ədalətsizliyin və xalqın öz yurd-yuvasından zorla çıxarılmasının faciəvi nümunəsidir. Bu köçürülmələr bir neçə mərhələdə həyata keçirilmiş, əsasən XX əsrin əvvəllərindən başlayaraq, daha sistematik xarakter almışdır. 1905-1907-ci illərdə erməni-müsəlman davaları, sonrakı illərdə isə Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yerli əhalinin öz doğma torpaqlarından qovulması ilə nəticələnmişdir. Xüsusilə 1948-1953-cü illərdə Sovet İttifaqının göstərişi ilə həyata keçirilən deportasiyalar zamanı on minlərlə azərbaycanlı Ermənistan SSR-dən Azərbaycanın aran bölgələrinə köçürülmüşdür. Bu köçlər yalnız fiziki deyil, həm də mənəvi zərbə olmuş, əsrlər boyu azərbaycanlıların yaratdıqları mədəni irsin və yaşayış məskənlərinin məhvinə səbəb olmuşdur.**

1988-ci ildən Ermənistanın təcavüzkar siyasəti yenidən intensivləşmiş, azərbaycanlı əhali deportasiyaya məruz qalmışdır. Nəticədə yüz minlərlə soydaşımız öz doğma yurdlarını itirərək qaçqın vəziyyətinə düşmüşdür. Bu proseslərin kökündə ermənilərin "böyük Ermənistan" ideyasını reallaşdırmaq məqsədi dayanırdı. Ermənistan hakimiyyəti bu torpaqlarda monoetnik dövlət yaratmaq məqsədi güdmüşdür. Azərbaycan bu gün də tarixi ədaləti bərpa etmək üçün mübarizə aparır. Qərbi Azərbaycan İcması itirilmiş torpaqların geri qaytarılması və Qərbi azərbaycanlıların hüquqlarının bərpası üçün fəaliyyət göstərir. Ermənistanın qeyri-insani siyasətinə beynəlxalq səviyyədə diqqət çəkmək tarixi ədalətin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Ermənistan SSR-də azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və zorakılıq aktları xalqımızın tarixində silinməz iz qoymuşdur. 1987-ci ilin sonlarından başlayaraq erməni silahlı dəstələri və yerli əhali azərbaycanlıların yaşadıqları kəndlərə basqınlar təşkil etmiş, evləri yandırmış, əmlaklarını qarət etmiş və dinc sakinləri qətlə yetirmişdir. Məsələn, 1988-ci il noyabrın 25-dən 26-na keçən gecə Kirovakan (indiki Vanadzor) şəhərinə bitişik Şaumyan (əvvəlki adı Vartanlı olub) kəndinə silahlı hücum edərək 14 azərbaycanlını vəhşicəsinə öldürmüşlər. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu havada gündüzlər gizlənib, gecələr yol gedərək 13-14 günə başqa ərazilərə çatmışdır.

1988-ci ilin sonunda Ermənistanda azərbaycanlıların yaşadıqları bütün rayonlarda erməni silahlı dəstələri kütləvi qırğınlar, qətl və qarətlər törətmişdir. Bu zorakılıqlar nəticəsində 1988-1989-cu illərdə Ermənistanda 300 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulmuş, 216 nəfər vəhşicəsinə qətlə yetirilmiş və 1154 nəfər yaralanmışdır. Baş verən hadisələr azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi olaraq xalqımıza qarşı törədilmiş soyqırımı aktı kimi qiymətləndirilir.

Əslən **Qərbi Azərbaycanın Uluxanlı mahalından olan Abbas Qasımovun** keçmiş günləri xatırlayaraq danışdığı hadisələr o dövrdəki sosial gərginliyi və azərbaycanlıların qarşılaşdıqları çətinlikləri əks etdirir: "Mən o dövrdə toy məclislərində nağara çalırdım. Toylar bizim üçün həm sevincli, həm də birlik və dostluğun gücləndiyi anlar idi. Lakin toy məclisləri həmişə dinc keçmirdi, ermənilər bəzən münaqişələr yaradırdılar. Hər dəfə bir hadisə baş verəndə kənd camaatı bir-birinə dayaq dururdu. Bir dəfə kəndimizdə toy idi, ermənilər qəsdən məclisə daş atmağa başladılar. Məqsədləri toy əhvali-ruhiyyəsini pozmaq və insanları qorxutmaq idi. Bir dəfə isə toyda gənclərin üstünə hücum etdilər. Biz dərhal qarşılıq verdik, onların bu niyyətlərini boşa çıxardıq. Ermənilər nə qədər zorakılıq etmək istəsələr də birlikdə onların qarşısını alırdıq.




Uluxanlı mənim vətənimdir, hər daşı, hər küçəsi mənim üçün əzizdir. Amma o dövrlər çox ağır idi. Bizə qarşı zorakılıq hər addımda hiss olunurdu. İnsanlar evlərindən çıxmağa belə ehtiyat edirdilər. Mən həmişə düşünürəm ki, bir gün biz o torpaqlara qayıdacağıq".

**Uluxanlı kəndindən olan 70 yaşlı Tərifə Musayeva** o dövrdə əhalinin çətin vəziyyətindən danışır: "O günləri unutmaq mümkün deyil. 1980-ci illərin sonlarına yaxın ermənilər bizə qarşı münasibətlərini açıq-aşkar sərtləşdirmişdilər. Həyatımız hər gün daha da çətinləşirdi. Mağazadan hətta ən adi ərzaqları almaq belə problem olurdu. Azərbaycan dilində danışanda bizə xidmət göstərmirdilər, erməni dilində danışmağımızı tələb edirdilər. Lakin bu olanlar sadəcə mağazalarla məhdud deyildi. Həyatın hər sahəsində diskriminasiya hiss olunurdu. Uşaqlarım kiçik idi, onları bağçaya aparırdım, erməni müəllimlər uşaqlarıma qarşı kobud davranırdılar. Bir dəfə oğlum evə gəlib ağladı, müəllimi ona hamının içində "sən buradan getməlisən, bura sizin yeriniz deyil" demişdi. Biz nə qədər şikayət etsək də, heç bir nəticə olmurdu. Məqsədləri bizi qorxutmaq, yurdumuzdan qovmaq idi. Ermənilər bizə qarşı hər cür təzyiq metodundan istifadə edirdilər. Hətta kəndlərdə işığı, suyu kəsirdilər ki, özümüzü çarəsiz hiss edək. Amma biz son ana qədər dözdük, torpaqlarımızı tərk etməmək üçün dirəndik.

O vaxt bir tərəfdən maddi çətinlik, digər tərəfdən də mənəvi təzyiq bizə çox əziyyət verirdi. Yadımdadır, bir gün qonşu kənddən bir qadın bizə qonaq gəlmişdi, axşam qayıdanda ermənilər yolunu kəsib onu döymüşdülər. Bizi həmişə təhdid edirdilər ki, əgər buradan getməsəniz, başınıza pis işlər açacağıq. Bu təzyiqlər bizi köçməyə məcbur etdi. Uluxanlıdan çıxaraq evimizi, əkin yerlərimizi, hər şeyimizi itirdik. Amma ən ağır olanı doğma yurdumuzdan ayrı düşmək idi. Hər zaman düşünürəm ki, bir gün yenidən Uluxanlıya qayıdacağıq".

**57 yaşlı Gülnarə Mirzəyeva** o günləri belə xatırlayır: "O illər ən ağır dövrlər idi. O vaxt biz Uluxanlıda yeni təmir etdiyimiz evdə yaşayırdıq. Böyük arzularla qurduğumuz evimizi qoyub çıxmaq məcburiyyətində qaldıq. İllər keçsə də, o evin hər küncünü, bucağını əzbər bilirəm. O ev mənim üçün təkcə bir məkan deyildi, həyatımızın ən gözəl anlarının şahidi idi. Amma o evin isti ocağını, həyətində əkdiyim ağacları qoyub çıxmaq məcburiyyətində qaldım. Evimizi tərk edəndə həyatımın ən ağır günlərini yaşadım. Hər şeyimizi, o cümlədən keçmişimizi və gələcəyimizi geridə qoyduq. Doğma torpaqlarımızdan ayrılmaq çox ağır idi, çünki hər daş, hər küçə həyatımızın bir parçası idi. O ev, o torpaq hər zaman ürəyimdədir. Hər gecə yuxularımda o yollarda gəzirəm, həyətimizdəki ağaclara su verirəm.

1988-ci ilin 7 dekabrında Spitak zəlzələsi baş verdi. O dəhşətli gündən sonra ermənilər fürsətdən istifadə edərək evlərimizi qarət etməyə başladılar. Hər yerdə silahlı ermənilər dayanıb azərbaycanlıların əşyalarını əllərindən alır, evləri talan edirdi. Bir neçə qonşum zəlzələdən sonra öz evlərini qorumaq üçün müqavimət göstərməyə çalışdı, lakin həmin quldurlar onları qətlə yetirdilər. Bu mənzərə hələ də gözümün önündədir: insanlar öz evlərini, həyatlarını qorumağa çalışırdılar, amma ermənilər hər şeyimizi əlimizdən aldılar. Biz yalnız evlərimizi yox, həm də yaxınlarımızı itirdik. O vaxt ailəsini, sevdiklərini itirən çox insan var idi. Amma bizim ən böyük gücümüz ümidimizdir. Ən böyük ümidim odur ki, cənab Prezidentin rəhbərliyi ilə bir gün öz yurdumuza qayıdacağıq. Mən əminəm ki, Uluxanlıya geri dönəcəyimiz gün uzaqda deyil".

Qərbi Azərbaycandan deportasiyaya məruz qalan hər bir azərbaycanlı üçün doğma yurda qayıtmaq ən böyük arzudur. Ermənilərin zamanında törətdikləri zorakılıqlar, yandırılmış evlər, talan edilmiş torpaqlar və itirilmiş həyatların ağrısı insanların yaddaşından silinmir. Onlar keçmişin acı xatirələrini unutmadan, gələcəyə ümidlə baxırlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə öz haqlarının bərpa olunacağına inanırlar. Bugünkü Azərbaycanın artan gücü, Qarabağda əldə olunan zəfər xalqın dövlətə və onun siyasətinə olan inamını daha da artırır. Böyük Qayıdış təkcə Qarabağı deyil, Qərbi Azərbaycan torpaqlarını da əhatə edən bir ümiddir. Qərbi azərbaycanlılar bir gün Uluxanlı, Göyçə, Zəngəzur kimi doğma yurdlarına dönmək üçün səbirlə gözləyir. Bu qayıdış itirilmiş torpaqların geri alınması ilə yanaşı, həm də millətin tarixi ədalətinin bərpası olacaq.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**